# Məni seçimə məcbur etmə, ana...

## Şəhid Teymur Abbasov



Yazıçı-jurnalist
Firuzə Bəymmədqızı
(Əsədullayeva)

(əvvəli ötən sayımızda)

***- Gizir, inşəallah Şuşaya çataq, mən bu bayrağı orda sancacağam. Sonra tağımla birlikdə şəkil çəkdirəcəyik və sən orada azan verəcəksən, biz birlikdə namaz qılacğıq.***

***Təəssüf ki. Şuşanın azadlığını görmək Teymura qismət olmadı, ehhh nə isə - deyərək sözünə davam etdig***

***Biz dağa qalxmağa başladıq.***

***Elə bu vaxt irəlidə bizi gözləyən içində hərbi texnikalar olan Kamazları 3 atəşlə vurdular.Texnikamız vurulanda 1 şəhid verdik, 2 yaralımız oldu. Biz geri qayıdaraq onlara kömək göstərmək istədikdə Teymir bizə ancaq irəli getməyə əmr verdi. Özü isə 2 nəfərlə geri döndü. Onlar şəhid və yaralıları təxriyyə edərək bizə çatdılar.***

***Əsgərlər həddindən artıq yorulmuşdu. (O qədər yüklə piyada dağa qalxmaq çox da asan deyil.)***

Teymur da çox yorulduğuna baxmayaraq bizə ürək-dirək verirdi:

-Biz seçilmişlərdənik, bu vətənin oğllarıyıq. Döyüşdə iştirak etmək hər oğula qismət olmur -deyə təkrar edirdi.

Bütün çətinliklərə baxmayaraq, biz bir-birinə kömək edə-edə irəliləyirdik.

Dağın başına çatdıq. Siranın sonunda gələn əskər və zabitlərin ayaqları həddindən artıq şişdiyindən artıq irəliləməyə gücləri çatmırdı.

Elə bu zaman Teymur əynindəki formanı çıxardı, əlindəki silahla aşağı düşərək dağa qalxan əsgərlərə kömək etməyə başladıg

***Hamımız bir yerə çəmləşdikdən sonra tabır komandirinin əmri ilə irəli hərəkət etməyə başladıq. Teymur əsgərlərə kömək etdiyi üçün geridə qalmışdı.***

***Biz artıq kəndə girmişdik. Ermənilər bizi pulemyot atəşinə tutdular. 3 nəfər yaralanmış əsgərlərimizi təxriyyə etdiksən sonra biz icəri yolla, 10 metr ara olmaqla irəli getməyə başladıq. Bir az gedəndən sonra tabor komandiri, snayperlə birlikdə ətrafı müşahidə edə-edə irəli getməyə başladılar.***

Mənimlə birlikdı 2 nəfər döyüşçü onları gözləməyə başladıq. Teymur elə bizə çata-şatda (Düşmən artıq bizi görmüşdü) bizə irəliyə getməyi tapşırdı və " Mən artıq sizə çatıram" -deyə əlavə etdi. Təxminən 10-15 addım atdıqdan sonra bizim əvvəl olduğumuz yerə minamyotla 2 mərmi atdılar. Bir zabit yaralandı, bir əsgər isə şoka düşdü.

Teymur mərmi düşən yerdə yaralıları sarğı etdikdən sonra onlara yavaş-yavaş aşağı sürünməyi tapşırdı və maşınların onları təxriyyə etməyə gəldiklərini söylədi.

Kəndin içindəki dağın ətəyinə çatanda artıq hava qaralmışdı. Əsgərlər ac, susuz, yorğun idilər.

Nəhayət Teymur gəlib bizə çatdı, ilk növbədə su istədi. Ona su verdik. Sonra dizi üstə oturaraq bir az yorğunluğunu aldı və üzünü bizə tutub tağımdakı son vəziyyəti -döyüşçülərdən kimin öldüyünü, kimlərin yaralandıqlarını, soruşdu. Biz ona bu haqda hesabat verdik.

Teymur sonra bizə indi kəndin içinə girəcəyimizi və səssizliyə riayət etməyimizi tapşırdı. Bir də düşmən tərəfdən ağ bayraq qaldırılarsa onları vurmayaraq əsir götürməyi tapşırdı.

Biz kəndin içinə girdikdə artıq gecə idi. Biz təyin olunan yerə (meşəyə) çatdıq. Post qurduq. Orada gecələdik.

Ermənilər Teymurun qanına susamışdılar. Onlar Teymurun yüksək rütbəli zabit olduğunu düşünərək onu vurmaq, bununla da əsgərlər arasına çaxnaşma salmaq istəyirdilər.

Gecə saat təxminən 12 olardı. Teymur 1 əskər ilə ərazini yoxlamağa çıxdılar. Onlar bir-birindən bir az aralıda yoxlama aparırdılar.

***Bu zaman əsgər irəlidən təxminək 15 m. uzaqdan 3 nəfərin gəldiyini görüb.. Bizim əsgər- durun, parolu söyləyindeyə qışqırıb. Teymur səsi eşidən kimi əsgərə yaxınlaşaraq nə baş verdiyini soruşub. Əsgər qarşıdan gələn 3 nəfərdən parolu istədiyini söyləyib. Teymur: -" kimsiniz?" - deyə soruşduqda parolu söyləməyiblər və -biz əsgərik – deyiblər. Gələnlər də öz növbəsində - Bəs siz kimsiniz? – soruşduqda Teymur cavabında – Mən tağım komandiri, leytenant Abbasov, yanımdakı da əsgər...***





**Vasif ağır-ağır başını qaldıraraq dolmuş gözləri ilə mənə baxdı və bunları söylədi: -" Kaş mən öləydim, Teymur sağ qalaydı, Şuşanın azad edilməsində iştirak edəydi. Mənə saxlamağa tapşırdığı, indinin özündə də məndə olan Azərbaycan bayrağını öz əlləriylə azad ŞUŞA mıza taxaydı. Ortaya dərin bir sükut şökdü. Bir azdan mən özümü toparlayaraq Vasifə müraciətlə döyüş səhnələrini və Teymuru yuxuda görüb - görmədiyini soruşdum. O hər gün gecələr döyüş səhnələrinin gözləri önündən keçdiyini, Teymuru isə bircə dəfə yuxuda gördüyünü bildirdi və yuxusunu danışdı...**

Bunu eşitcək ermənilər atəş açmağa başlayıblar. Avtomatdan 4 atəş açıblar. Güllələrdən 2-si boşluğa düşüb, 1-i bron jiletə dəyib, biri isə, Teymura. (sol tərəfdən ürək nahiyyəsinə).

***Atəş açılan kimi əsgər " – Komandiri vurdular –deyə qışqıraraq, həyacan siqnalı verdi. Hamımız bircə anda ayağa duraraq Teymur vurulan tərəfə qaçdıq.***

***Ermənilər artıq qaçmışdılar. Teymur isə yerə yıxılmışdı. Biz görən kimi, -uşaqlar, məni vurdular - deyə güclə eşidiləcək səslə pıçıldadı...***

Biz onun axır nəfəsinə çatmışdıq. Teymuru təxriyyə edə bilmədik və olduğumuz posta gətirdik.

Tabor komandiri artıq ermənilərin bizim içimizə keçdiyini, döyüşün hər an başlaya biləcəyini bildirərək , döyüşə hazır olmağımızı tapşırdı.

Artıq dan yeri sökülürdü. Hamımız sanki daşa dönmüşdük. Kədərlə qarşımızda uzanan Teymuru dövrələmişdik. Əsgərlər onun ölümünə ağlayır, onun və bütün şəhidlərimizin qisasını alacaqlarına and içirdilər.

Teymur isə artıq əlimizdən bir quş kimi uçaraq aliliyin ən uca zirvəsində - şəhidlik zirvəsində qərar tutmuşdu...

Vasif ağır-ağır başını qaldıraraq dolmuş gözləri ilə mənə baxdı və bunları söylədi: -" Kaş mən öləydim, Teymur sağ qalaydı, Şuşanın azad edilməsində iştirak edəydi. Mənə saxlamağa tapşırdığı, indinin özündə də məndə olan Azərbaycan bayrağını öz əlləriylə azad ŞUŞA mıza taxaydı.

Ortaya dərin bir sükut şökdü. Bir azdan mən özümü toparlayaraq Vasifə müraciətlə döyüş səhnələrini və Teymuru yuxuda görüb - görmədiyini soruşdum. O hər gün gecələr döyüş səhnələrinin gözləri önündən keçdiyini, Teymuru isə bircə dəfə yuxuda gördüyünü bildirdi və yuxusunu danışdı:

- Gördüm ki, Teymur hərbi formada gülə-gülə gəlir. Mənə yaxınlaşdığı zaman –Ay gizir, mən ölməmişəm, sağam – deyərək məndən uzaqlaşdı...

PS. Teymurun şəkilləri qarşımdadır. Baxıram, baxıram, baxdıqca heç doymuram. Sonra onun ruhuna müraciətlə qeyri ixtiyari :

***-Hər dəfə anana " -Ehhh, ay ana, sən bilmirsən ki, şəhidlik necə gözəl bir şeydir, necə bir ucalıqdır, mən Vətən uğrunda şəhid olacağam" - deyirmişsən.***

***Vətən uğrunda şəhid olmaq sənin arzun idi, qardaşım.***

***Bir də döyüş yoldaşından eşitdim ki, Şəmistan Əlizamanlının ifasında "Cənab leytenant mahnısını çox sevir, hətta arabir özün də zümzümə edirmişsən.***

***Teymur, qardaşım, sevdiyin mahnının qəhrəmanı leytenantın həyatını sən də yaşadın, onun taleyi sənin də nəsibin oldu. Sən də şəhid oldun***

***Şəhidliyin mübarək!***

***Məqamın uca olsun, ŞƏHİDİM !!!***